*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 7 noyabr 2018-ci il | № 86 (2302) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük tarixi qələbəmizdir

*Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər. Muğam Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşdülər. Görüşdə Prezident İlham Əliyev əsas prioritet istiqamətlərə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə və ordu quruculuğu məsələlərinə də toxunub.*



- Mən qeyd etdim ki, bizim incəsənətimiz, ədəbiyyatımız milli ruhumuzu daha da yüksək səviyyəyə qaldırır. Biz elə etməliyik ki, gənc nəsil də milli ruhda tərbiyə alsın, vətənpərvərlik ruhunda böyüsün və gələcəkdə ölkəmizi ləyaqətlə idarə edə bilsin. İki il bundan əvvəl Azərbaycan xalqı bir daha öz yüksək mənəvi ruhunu nümayiş etdirib. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük tarixi qələbəmizdir. Mənfur qonşular bizim kəndlərimizi atəşə tutmuşdu. Bu qeyri-insani hücum nəticəsində dinc vətəndaşlar həlak olmuş, yüzlərlə evə ziyan dəymiş, bizim kəndlərimiz, yaşayış məntəqələrimiz atəşə tutulmuşdu. Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirərək düşmən mövqelərini məhv etdi, düşməni öz yerinə oturtdu və işğal altında olan torpaqların bir hissəsini işğalçılardan azad etdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğal altında olan minlərlə hektar torpaq azad edildi. İndi biz on minlərlə hektar torpağa tam nəzarət edirik. Aprel döyüşləri bizim böyük qələbəmizdir. Bu qələbə onu göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq.

Ağdam rayonunda da dağıntılara məruz qalmış 600-dən çox ev qısa müddət ərzində bərpa edildi, yenidən tikildi. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti güclü dövlətdir. Döyüşlərdən sonra biz Mehriban xanımla birlikdə Ağdamda olduq, dağılmış evlərin sahibləri ilə görüşdük. O vaxt mən söz verdim ki, bütün evlər qısa müddət ərzində bərpa ediləcək, belə də oldu. 2016-cı ilin sonunda biz növbəti dəfə Ağdama gələrək artıq tikilmiş, bərpa olunmuş evlərin açılışında iştirak etdik. Bir neçə gün bundan əvvəl buraya səfərə hazırlaşarkən mənə məruzə edildi ki, təmas xəttinə yaxın olan 19 kənddə hələ də təmirsiz 121 ev var. Bu evlərin yenidən tikilməsi, bərpası ilə bağlı müvafiq Sərəncam veriləcəkdir.

Aprel döyüşləri bizim barışmaz ruhumuzun təzahürüdür. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Aprel döyüşləri onu göstərdi ki, Ermənistan tərəfindən uzun illər ərzində yaradılan mif darmadağın edildi, onu göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir, buna hazırdır və biz bunu sübut etdik. Ermənistanın acı hərbi məğlubiyyəti onun möhkəm olmayan sütunlarını tam sıradan çıxardı. Bu ilin yazında Ermənistanda baş vermiş hadisələr bunun bariz nümunəsidir. Məhz 2016-cı ilin aprel ayında Ermənistanın işğalçı rejiminə çox böyük zərbə vuruldu və onlar öz işğalçılıq siyasətinin qurbanına çevrildilər. Mən dəfələrlə demişdim ki, Ermənistanı idarə edən kriminal xunta rejimi bütün dünya birliyi tərəfindən qınaq obyektinə çevrilməlidir. Mən demişdim ki, Ermənistanı idarə edən insanlar kriminal xunta rejiminin başçılarıdır. İndi bunu erməni xalqı deyir. Biz demişdik ki, onların generalları oğrudur. Biz demişdik ki, onların qəhrəmanları cinayətkardır, qorxaqdır, indi bunu erməni xalqı deyir. Yəni, biz dediyimizi indi erməni xalqı deyir və görür. Ermənistanda bu il baş vermiş dəyişikliklər onların işğalçılıq siyasətinin tam iflası deməkdir, bu, bir. İkincisi, bu hadisələr onu göstərir ki, bizim apardığımız siyasət öz nəticəsini verir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, - bunu heç gizlətməyə də ehtiyac yoxdur, - biz bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcəyik, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalıdır, işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini tezliklə danışıqlar yolu ilə çıxarmalıdır və imkan verməlidir ki, Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpağına qayıtsınlar. Bunu nə qədər tez anlasalar, o qədər də onlar üçün yaxşı olar, bölgə üçün yaxşı olar. Bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə barışmaq fikrində deyilik, beynəlxalq hüququn normaları bizim mövqeyimizi tam dəstəkləyir, tarixi ədalət bizim tərəfimizdədir.

Biz hamımız yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr, xaos nəticəsində Ermənistan xarici dəstəklə bizim torpaqlarımızın bir hissəsini işğal edib. Ancaq iki il bundan əvvəl biz nümayiş etdirdik ki, torpaqlarımızı hərbi yolla azad edə bilərik və etdik də. Bu il Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan istiqamətində apardığımız uğurlu əməliyyat nəticəsində on min hektardan çox ərazi, o cümlədən strateji əhəmiyyət daşıyan yüksəkliklər bizim nəzarətimizə keçdi. Biz indi strateji kommunikasiyalara, yollara, o cümlədən Ermənistan ərazisindəki yollara, Dağlıq Qarabağa gedən kommunikasiyalara tam nəzarət edirik.

Yəni, bütün bu amillər onu göstərir ki, bizim iradəmiz də, gücümüz də var. Bu gün Azərbaycan hərbi baxımdan nəinki Ermənistanla müqayisədə, dünya miqyasında güclü dövlətlər sırasındadır. Biz hərbi qüdrətimizi bundan sonra da artıracağıq və hesab edirəm ki, bu, danışıqlar üçün ən vacib amillərdən biridir. Çünki, əfsuslar olsun, beynəlxalq hüququn normaları tamamilə kənara qoyulur. Biz istədiyimizə nail olacağıq. Biz ədalət tələb edirik. Biz tələb edirik ki, tarixi torpaqlarımız işğalçılardan azad edilsin və ediləcəkdir. Azərbaycan dövləti bu müqəddəs məqsədə çatmaq üçün bundan sonra da bütün lazımi tədbirləri görəcək. Ümid edirəm ki, Ermənistan rəhbərliyi bölgədə yaranmış vəziyyəti düzgün təhlil edərək, öz işğalçı qüvvələrini tezliklə bizim torpaqlarımızdan geri çağıracaqdır. Əks təqdirdə, istənilən variant mümkündür və biz istənilən varianta hazırıq.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri tikilməkdə olan bir sıra hərbi obyektlərə baxış keçirib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti-quruculuq işləri davam etdirilir.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti tikilməkdə olan bir sıra hərbi obyektlərə baxış keçiriblər. Müdafiə naziri inşaat işlərinin gedişatını yoxlayıb və müvafiq tapşırıqlar verib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sonra nazir hərbi hissələrdə yaradılan şəraitlə tanış olub. General-polkovnik Zakir Həsənov qərargahda xidməti və inzibati otaqlara, eləcə də hərbi texnikalar üçün nəzərdə tutulmuş saxlanclara baxış keçirərək konkret tapşırıqlar verib.



# HHQ-nin bölmələrin idarəedilməsi və texniki-nəzarət mərkəzinin açılışı olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) modernləşdirilməsi çərçivəsində bölmələrin idarəedilməsi və texniki-nəzarət mərkəzinin açılışı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti döyüşü idarəetmə məntəqəsinə, rabitə qovşağına, idarəetmə cihazlarının test və təmiri laboratoriyasına, idarəetmə üzrə mütəxəssislərin hazırlanması üçün nəzərdə tutulmuş simulyatorlara, eləcə də digər xidməti və inzibati otaqlara baxış keçiriblər.

Müdafiə nazirinə məruzə edilib ki, mərkəzin təyinatı müxtəlif növ hərbi aviasiyanın uçuşlarının idarəedilməsi, həmçinin döyüş tapşırıqlarının dəqiq və effektiv icrasının təmin edilməsidir.

Mərkəzdə yaradılan şəraitlə tanış olan Müdafiə naziri HHQ-nin komandanlığına müvafiq tapşırıqlar verib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Kibertəhlükəsizlik sahəsində işçi görüşü keçirilib

Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlikləri arasında imzalanmış fəaliyyət planına əsasən Bakıda kibertəhlükəsizlik sahəsində təcrübə mübadiləsinə dair işçi görüşü keçirilib.

Tədbirdə tərəflər dünyada baş verən lokal hərbi münaqişələr, terror təhlükəsi və informasiya sistemlərinə kiberhücumların sayının artması məsələlərini, eləcə də qlobal kibertəhlükəsizlik sahəsində vahid fəaliyyət sisteminin təşkilinin vacibliyini müzakirə ediblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

6 noyabr 2018-ci il.

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Belarus ekspertləri arasında mühəndis-texniki təminat üzrə müzakirələr aparılır

Azərbaycan ilə Belarus arasında imzalanmış 2018-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakıda hər iki ölkənin müvafiq qurumlarının ekspertləri arasında işçi görüşü keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, noyabrın 8-dək davam edəcək görüşdə ekspertlər qarşılıqlı təcrübə mübadiləsi məqsədilə mühəndis-texniki təminat üzrə müzakirələr aparacaqlar.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının nümayəndələri ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşüblər

Noyabrın 2-də Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının nümayəndələri ATƏT-in Minsk Qrupunun Fransadan olan həmsədri Stefan Viskonti, Rusiyadan olan həmsədr İqor Popov, ABŞ-dan olan həmsədr Endrü Şofer və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri, icma rəhbəri, Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Dağlıq Qarabağ bölgəsindən kənarda yerləşən və işğal altında olan Zəngilan, Qubadlı, Füzuli, Kəlbəcər rayonlarının icra hakimiyyətlərinin başçıları Ramiz Həsənov, Malik İsaqov, Alı Alıyev, Aqil Məmmədov, İctimai Birliyin idarə heyətinin üzvü, deputat Elman Məmmədov, İctimai Birliyinin Əlaqələndirmə Şurasının sədri, Qarabağ Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Əhmədov və idarə heyətinin üzvü Ramik Məhərrəmov iştirak ediblər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələr aparılıb. Həmsədrlər regiona səfərləri ilə bağlı görüş iştirakçılarına məlumat veriblər.

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri və digər rayonların icra hakimiyyətlərinin başçıları həmsədrlərə müxtəlif məsələlərlə bağlı suallar veriblər. Onlar münaqişənin tezliklə ədalətli həll edilməsi və azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları üçün ATƏT-in Minsk Qrupunun səylərini artırmağa çağırıblar.

Görüşdə, həmçinin Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni əməllər, xüsusilə məskunlaşdırma siyasətinin aparılması və demoqrafik tərkibin qəsdən dəyişdirilməsi, Azərbaycan xalqına məxsus maddi-mədəni irsin talan edilməsi kimi narahatlıq doğuran məsələlər qeyd olunub.

*Ön xətdən reportaj*

# “Səngər hər birimiz üçün müqəddəsdir”

*Düşmənlə təmas xəttində, demək olar ki, hər gün atəşkəs rejimi pozulur. Erməni qəsbkarları aprel döyüşləri və Günnüt zəfəri nəticəsində cəsur igidlərimiz tərəfindən azad olunan torpaqlarımızda nəzarəti itirdikləri ilə barışa bilmir, yaranmış hər fürsətdən istifadə edərək təxribatlar törədirlər. Ancaq Vətənin keşiyində dayanan qorxmaz oğullarımız hər zaman bədxah qonşumuza layiqli cavab verərək, onları geri oturdurlar. Bu gün hər birimizin sakit və firavan yaşaması üçün əsgərlərimiz gecə-gündüz səngərdə döyüş növbətçiliyi aparırlar. Yorğunluğun nə olduğunu bilməyən Azərbaycan əsgərinin bir amalı var - Vətən torpaqlarına uzanan əlləri kəsib atmaq, üçrəngli bayrağımızı işğal olunmuş torpaqlarımızda dalğalandırmaq.*



Ön xətt bölmələrimizdə xidmət edən gənclərimizin gözlərindəki qığılcımı görəndə daha da ruhlanıram. O baxışlarda İbadın cəsarətini, Ramilin vətənpərvərliyini, Mübarizin qeyrətini, Fəridin sədaqətini, Samidin hünərini... görürəm. O baxışlar mənə Vətənin müqəddəs, ana nəfəsi qədər doğma olduğunu deyir. O qığılcımdır Vətəni yaşadan, şərəfləndirən.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin bir bölməsindəyik. Bizi müşayiət edən kapitan Tural Qocayev şəxsi heyətin mənəvi-psixoloji vəziyyətindən danışaraq bildirir ki, əsgərlərimizin döyüş ruhu yüksək səviyyədədir, hər an torpaqlarımızı işğaldan azad etməyə hazırdırlar. "Əsgərlərimizin mənəvi-psixoloji təminatı ordu quruculuğunun və döyüşə hazırlığın əsas göstəricilərindən biridir. Əgər şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti yetərincə deyilsə, o ordu məğlubiyyətə düçardır. Bu səbəbdən qarşımızda duran əsas vəzifələrdən biri də şəxsi heyətin mənəvi-psixoloji və döyüş qabiliyyətini daim yüksək tutaraq, torpaqlarımızı düşmən işğalından hərb yolu ilə azad etməyə hər an hazır olmaqdır. Azərbaycan Ordusunun yaranmasının və Bakı şəhərinin azad olunmasının 100 illiyinə həsr olunmuş paradlar da deməyə imkan verir ki, ordumuzun döyüş əzmi, mənəvi-psixoloji və peşəkar hazırlığının səviyyəsi yüksəkdir. Döyüş mövqelərində olarkən, əsgərlərimizin gözlərindən "nə zaman döyüş əmri veriləcək" ifadəsini oxumaq olur. Onlar komandirlərinin öyrətdiklərini dərindən mənimsəyirlər. Hər biri yaxşı bilir ki, xalqımızın əsgərlərimizə etimadı böyükdür. Onlar da hər an işğal altında olan torpaqlarımızı azad etməyə, soydaşlarımıza o yerlərə qayıdış gününü yaşatmağa hazırdır".

Döyüş mövqeyində bizləri qarşılayan baş leytenant Samir Mehdiyev bildirir ki, şəxsi heyətin xidməti günün nizam qaydasına uyğun olaraq aparılır.



"Düşmənlə üzbəüz dayanmağımız əsgərlərimizin dərslərə cəlb olunmasına heç bir maneçilik törətmir. Bunun üçün hər cür şərait yaradılıb. Nəzəri məşğələlərlə yanaşı, praktiki təlimlərin keçirilməsinə üstünlük veririk. Həmçinin asudə vaxtda Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizdən söhbət edirik. Hər birimiz onların göstərdikləri qəhrəmanlıqla yaxından tanış olmalıyıq. Unutmamalıyıq ki, düşmənlərimizin törətdikləri vəhşiliklərə görə minlərlə həmvətənlimizə doğma el-obalarında böyümək qismət olmadı. Bu gün Vətənimizin keşiyində cəsarətlə dayanmışıq ki, onların həsrətinə tezliklə son qoyaq. Ali Baş Komandanımızın döyüş əmri ilə qısa müddətdə ərazi bütövlüyümüzü bərpa etməyə hazırıq. Bunu düşmən də yaxşı bilir. Onlar aprel döyüşlərində ordumuzun gücünü gördülər. Yenə də torpaqlarımızı sülh yolu ilə qaytarmaq istəməsələr, əsgərlərimizin nəyə qadir olduğunun şahidi olacaqlar".

- Səngərdə xidmət etmək çətin olsa da, şərəflidir. Çünki biz Vətənimizi düşmənlərdən qoruyuruq, - deyə Beyləqan rayonundan hərbi xidmətə çağırılan kiçik çavuş Elçin Kərimov söhbətə başlayır. - Vətəni qorumaq üçün birinci özünü qorumalısan. Əgər özünü, əsgər yoldaşlarını qoruya bilməsən, onda torpağını necə qoruyarsan? Bu səbəbdən hər an ayıq-sayıq, diqqətli xidmət aparırıq. Düşmənin bütün fəaliyyətini nəzarət altında saxlayırıq. Müşahidə zamanı aşkar olunmuş ən adi bir hərəkəti belə yuxarı komandanlığa məruzə edirik. Hər gün əsgərlərimə təlimat keçəndə bütün bunları xatırladıram. Onlar da unutmurlar ki, arxamızda bizə güvənən ailəmiz, dostlarımız, yaxınlarımız var. Xalqımızın bizə olan inamını tez bir zamanda doğruldacağıq.

- Düşmənlə təmas xəttində xidmət etmək arzum olub. Artıq xidmətimi başa vursam da, sevinirəm ki, ön xətdə xidmət edirəm. İlk gündən komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Onlar bizlərə hərb sənətinin bütün incəliklərini öyrədirlər. Hər birimiz silahların taktiki-texniki xüsusiyyətlərini bilir, onlardan istifadə etməyi bacarırıq. Vətənimizin hər qarış torpağı bizim üçün əzizdir. Bunun üçün də xidmət etdiyimiz səngəri evimiz bilirik. İstidə, soyuqda ona sığınırıq, ondan güc alırıq. Müharibə şəraitində olduğumuz üçün hər an döyüşə hazırıq. Ali Baş Komandanımızın döyüş əmri ilə düşmənin üzərinə irəli atılaraq, onlara göz açmağa macal verməyəcəyik, - Şamaxı rayonundan hərbi xidmətə çağırılan əsgər Elvin Əlpaşayev bizimlə fikirlərini bölüşür.

Döyüş növbətçiliyindən qayıdan, ordu sıralarına Balakən rayonundan çağırılan əsgər Saleh Yaqubov söhbətə qoşulur: "Hərbi xidmətə gələnə qədər əsgər həyatından məlumatım az idi. Hərbi hissədə əsgərlər üçün yaradılan şəraiti görəndə, həqiqətən də, qüdrətli dövlətin vətəndaşı olduğumdan bir daha əmin oldum. İlk gündən komandirlərimizin diqqəti və qayğısı ilə əhatə olunmuşuq. Hər zaman bizlərə Vətənimizin hərb tarixindən, şəhidlərimizin qəhrəmanlığından söhbətlər edirlər. Fiziki hazırlığımıza da xüsusi diqqət yetirilir. Günün nizam qaydasına uyğun olaraq səhər və axşam fiziki hazırlıqdan məşğələlər keçirik. Bilirik ki, bütün tədbirlər hər an hazırlıqlı, xalqımızın bizlərə olan inamını doğrultmağımız üçündür. Necə ki, aprel döyüşlərində ordumuz bu inamı doğrultdu. Biz də hər an işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırıq. Arzu edirik ki, torpaqlarımızın azad edilməsi bizim hərbi xidmət dövrümüzə təsadüf etsin. Qalib ordunun əsgərləri kimi ailəmizin yanına dönək. Bu, hər birimiz üçün ən böyük şərəf olardı".



Əsgər Boqdan Hüseynov isə bildirir ki, hərbi xidməti müddətində çoxlu dost qazanıb. "Səngər hər birimiz üçün müqəddəsdir. Düşmənə nifrəti, Vətənə məhəbbəti məhz burada daha yaxından hiss etdik. Dostlarımla işğalda olan torpaqlarımızı azad edəcəyimiz günün xəyallarını qurub, müzakirələr aparırıq. Dərslər zamanı çalışırıq ki, hər şeyi daha yaxından mənimsəyək. Komandirlərimizin dediyi kimi, döyüşdə qalib olmaq cəsarətlə kifayətlənmir. Əgər əlində tutduğun silah haqqında məlumatın az olsa, ən güclü silah belə dəmir parçasına çevriləcək. Əsgəri xidmətim ərzində düşmənlə üzbəüz dayanmağımdan qürurlanıram. Tərxis olsam da, komandirlərim və əsgər yoldaşlarımla daim əlaqə saxlayacam. Hər birinin şad günündə yanlarında olacam. Necə ki, bu gün hamımız bir yataqxanada qalırıq, bir səngərdə döyüş növbətçiliyi aparırıq, eləcə də həyatımızın növbəti məqamlarını da bölüşməliyik. Təmas xəttində olmağımıza baxmayaraq, asudə vaxtımızdan səmərəli istifadə edirik. Kitab, jurnal, qəzet oxuyur, radio dinləyir, viktorinalar və yarışlar keçiririk.

Əslən Ucar rayonundan olan əsgər Röyal Qədirzadə də düşüncələrini bölüşür:

- Xidmətimizin ilk günlərindən ölkə başçımızın qayğısını hiss edirik. Əsgərlər üçün yaradılan məişət şəraiti müasir standartlara cavab verir. Yeni tikilmiş yataqxanamız, qidalanmağımız, geyimimiz yüksək səviyyədədir. Komandirlərimiz də bizlərə hərb elminin sirlərini öyrədirlər. Hər an Böyük Qələbə uğrunda gedən döyüşlərə hazır olmağı, lazım gələrsə, canımızı belə fəda etməkdən çəkinməməyi aşılayırlar. Dərslərdə aprel döyüşlərində hərbi qulluqçularımızın qəhrəmanlıqlarından da söhbət edirlər. Belə peşəkar, Vətənini sevən zabitlərimizin tabeliyində xidmət etməyimizlə fəxr edirik. Həyatlarını orduya bağlayan hərbçilərimizdən ilham alırıq. Onların etimadını doğrultmaq üçün daim öz üzərimizdə çalışırıq. Xidmətimizi layiqincə başa vuraraq, ailəmizin, dostlarımızın yanına alnıaçıq, başıuca dönəcəyik.

Əsgərlər Əşrəf Məmmədov və Cahangir Şıxəliyev də Vətənimizi göz bəbəyimiz kimi qoruduqlarını, hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğal olunan torpaqlarımızı azad etməyə hazır olduqlarını bildirirlər. "Ermənilər atəşkəs rejimini nə qədər pozsalar da, dinc əhalini atəşə tutsalar da, anlamalıdırlar ki, hərb yolu ilə işğal etdikləri torpaqlarımızı əldə saxlaya bilməyəcəklər."

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

*Milli qəhrəmanlarımız*

# Qəhrəmanlar unudulmur



*Oktyabrın 31-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimovun anadan olmasının 65 illik yubileyinə həsr olunmuş "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhid Koroğlu Rəhimovun ailə üzvləri və döyüş yoldaşları iştirak etdilər.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə polkovnik-leytenant Zöhrab İmamquliyev açaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Milli Qəhrəmanın şərəfli döyüş yolundan danışdı:

- Hər bir xalqın, millətin dayağı və güvənc yeri onun ordusu və bu orduda şərəflə xidmət edən mərd oğullarıdır. Bu gün bura şücaəti, igidliyi və dönməzliyi ilə adını qızıl hərflərlə tariximizin şanlı səhifəsinə yazdıran Milli Qəhrəman Koroğlu Rəhimovun anım gününə toplaşmışıq. Yetkinlik yaşından Koroğlu həmyaşıdlarından Vətəninə bağlılığı ilə seçilirdi. Soydaşlarımızın doğma yurd-yuvalarından deportasiya olunması, 20 Yanvar hadisələri, Xocalı soyqırımı qəhrəmanımızın düşməndən qisas almaq, torpaqlarımızı işğalçılardan təmizləmək arzusunu daha da alovlandırırdı. O, könüllü cəbhəyə getməyi, torpaqlarımızı düşmənlərdən qoruyanların sıralarına daxil olmağı qərara alır. Bunu atasına və həyat yoldaşına bildirir. Atası İsmayıl Rəhimov bu cür mərd, cəsur, qorxmaz oğul böyütdüyü üçün fəxr edir və ona xeyir-dua verir. Vətənimizi, ana-bacılarımızı ermənilərdən qorumağı tövsiyə edir. Qoç Koroğlu kimi qəhrəman olmağı arzulayır. Koroğlu könüllü olaraq yenicə yaranmaqda olan milli ordu sıralarına qatılır. Öz arzusu ilə Qarabağın ən gərgin döyüş bölgəsinə gedir. Qısa müddət ərzində Koroğlunun qəhrəmanlığı dillər əzbəri olur. Goranboy rayonunun Buzluq, Çantaz, Erkəc kəndlərinin azad olunmasında onun başçılıq etdiyi bölük əsl qəhrəmanlıq nümunəsi göstərir. Həmin döyüş zamanı düşmən məhv edilir, bir neçəsi əsir götürülür, xeyli döyüş sursatı ələ keçirilir. Daha sonra qəhrəman komandirin rəhbərlik etdiyi bölmə Başkənd, Madagiz, Gülüstan kəndlərini də düşməndən azad edir. 1992-ci il iyulun 3-də Koroğlunun komandiri olduğu bölük Ağdərə istiqamətində hücuma keçir. Bu qəhrəmanımızın son döyüşü olur. O, Ağdərə yaxınlığında gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Qəhrəmanımızın məzarı Bakıda Şəhidlər xiyabanındadır.



Anım mərasimində çıxış edən millət vəkili Adil Əliyev Milli Qəhrəman Koroğlu Rəhimovu fəxrlə xatırladı və 2016-cı il aprelin əvvəllərində hərbçilərimizin göstərdikləri şücaətdən danışaraq, onlarla qürur duyduğunu bildirdi: "Gənc nəslin milli mənlik şüurunun, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə nail olmaq üçün Qarabağ savaşında və düşmənlə təmas xəttində yerləşən ərazilərimizin müdafiəsində, erməni quldurlarından təmizlənməsində igidlik göstərmiş Milli qəhrəmanlarımızı təbliğ etməliyik. Ölkə rəhbərliyi bu məsələni daim diqqət mərkəzində saxlayır. Mütəmadi olaraq şəhidlərimizin anımına həsr olunan tədbirlər keçirilir, məzarları ziyarət olunur. Biz də Milli Qəhrəman adına layiq görülən hər bir Vətən övladını yaxından tanımalıyıq, onların keçdiyi böyük və şərəfli döyüş yollarını, göstərdikləri igidlikləri öyrənməliyik. Çünki qəhrəmanlarımızın həyat yolu gənclərimiz üçün örnəkdir! Nə qədər ki, Vətənin taleyini öz taleyindən üstün tutan mərd, ölümün gözünə dik baxan, rəşadətli oğullarımız var, heç bir qüvvə, heç bir ordu bizə qalib gələ bilməz. Unutmamalıyıq ki, müharibə qurtarmayıb. Torpaqlarımız düşmən tapdağı altında olduğu müddət Azərbaycan əsgəri, vətəndaşı hər an ərazi bütövlüyümüzü təmin etmək üçün müharibəyə hazır olmalıdır. Bizlər də döyüşlərə hazır olmaq üçün üzərimizə düşən vəzifəni vicdanla yerinə yetirməliyik. İnanıram ki, Azərbaycan əsgəri tezliklə Böyük Qələbə sevincini xalqımıza yaşatmaqla, aprel döyüşlərində və Günnüt zəfərində olduğu kimi, düşmənə bir daha nəyə qadir olduğunu sübut edəcək".



Daha sonra tədbirdə çıxış edənlər qeyd etdilər ki, Vətənin dar günündə torpaqlarımız uğrunda canlarını fəda edən şəhidlərimizin, Milli qəhrəmanlarımızın keçdikləri rəşadətli həyat yollarının, döyüşlərdə göstərdikləri igidliklərinin təbliği gənclərimizdə vətənpərvərlik hissinin inkişafına və güclənməsinə, mübarizə əzminin daha da qüvvətlənməsinə xidmət edir.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifa etdiyi vətənpərvərlik mahnıları şəhidə, şəhidliyə ehtiram kimi dinlənildi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

## Dövlət Bayrağı Günü münasibətilə "Açıq qapı günü" və andiçmə mərasimi keçiriləcək

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, noyabrın 9-da Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı günü", eləcə də təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi təşkil olunacaq.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkəcəklər.

"Açıq qapı günü" çərçivəsində komandanlıqla valideynlərin görüşlərində hərbi qulluqçuların xidməti ilə bağlı onları maraqlandıran məsələlər müzakirə ediləcək və sualları cavablandırılacaq.

Bayram günü münasibətilə şəxsi heyət üçün mədəni-kütləvi tədbirlər keçiriləcək.

## "Artıq uzun illərdir ki, yalnız Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar aparılır"

Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov Moskvada keçirdiyi brifinqdə Qarabağ tərəfinin danışıqlar masası arxasına qayıtması barədə N.Paşinyanın bəyanatı ilə bağlı suala cavabında deyib: "Vaxtilə Qarabağın təmsilçiləri Bakı və Yerevan arasında danışıqlarda iştirak edirdilər. Ermənistan rəhbərliyinin təklifi ilə bu təcrübə dəyişdirildi və artıq uzun illərdir ki, yalnız Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar aparılır".

AZƏRTAC xəbər verir ki, S.Lavrov bildirib: "Nikol Paşinyanın Dağlıq Qarabağ tərəfinin danışıqlar prosesinə cəlb olunmasının zəruriliyi haqqında dəfələrlə səsləndirdiyi fikirlərə gəldikdə, biz artıq bu bəyanatı şərh etmişik. Bu məsələni münaqişə tərəfləri özləri həll etməlidir. Vaxtilə Qarabağın təmsilçiləri Bakı və Yerevan arasında danışıqlarda iştirak edirdilər. Ermənistan rəhbərliyinin təklifi ilə bu təcrübə dəyişdirildi və artıq uzun illərdir ki, yalnız Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar aparılır. Əlbəttə, biz başa düşürük ki, Yerevan danışıqlar prosesindəki mövqeyində Qarabağın məsələyə yanaşma tərzini nəzərə alır, lakin hazırda mövcud olan ikitərəfli formatı dəyişdirmək üçün tərəflərin hər ikisinin razılığı tələb olunur. Bildiyimiz qədər, bu cür razılaşma yoxdur və düzünü desək, mən Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının mahiyyəti üzrə məsələlərin müzakirəsinə başlamaq üçün ilkin şərtlər irəli sürməzdim".

*Ovqat*



# "Ürək deyir yaşa hələ!.."

Payız hökmünü göstərməkdədi. Ağacların yarpaqları saralıb, saralır. Düzü-dünyanı sarılıq tutub. Sarı bənizli payızda saralmış yarpaqlar budağından üzülür, əsən külək yarpaqları yola sərir, izə sərir. Ömrü boyu harasa tələsən itiyerişli kişi addımlarını yavaşıdır, dayanır, ağacların yan-yörəsinə səpələnmiş sarıca yarpaqlara baxır. Kövrəlir. Bu qəfil kövrəklik təbiətin fəlsəfəsinə etiraz deyil, gileydi...

Cabir Novruzun bəşərə xitabən yazdığı bir misranı xatırlayır: "... bir-birinizin ürəyini qoruyun". Onda ömür dediyimiz karvan yolu mənzilinə çatacaq...", - pıçıldadı. Bu bənzərsiz pıçıltını özündən savayı kimsə eşitmədi, eşidə bilməzdi - özüydü, yarpaqları saralan ağaclarıydı, həzin-həzin əsən payız mehiydi, əbədiyyət qədər uzaqlarda dolaşan seyrək buludlarıydı...

Son vaxtlarda kürlük edən ürəyi gizildədi; ürəyinə çarə üçün gəldiyi məkanın - Silahlı Qüvvələrin Baş Klinik Hospitalının həyətində ürəyinə yük edirdi gördüklərini, gördükləri düşüncələrinin nizamını pozurdu....

Ürəyi ağrıyırdı. Ovunmaq bilməyən bu ağrılar neçə illərdi Abdulla Novruz oğlunun ömürdaşıydı. "Ağrı-acıları səngərdə, əsgərlərin əhatəsində unuduram...", - belə deyirdi. Bu səmimi etirafın işığının bir əlinin səngərlərin yaxasından yapışdığını duymaq çətin deyildi. "Dərdinin adı Meşəli, Ağdaban, Xocalı faciələri, Şuşanın, Laçının, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın işğalı olanların, dərdinin məlhəmi Böyük Qələbə olanların sırasındadı Novruz oğlu Abdulla, Abdulla Qurbani", - düşünənlərin sırasında mən də varam...

Zamanında Şərur rayon Mədəniyyət şöbəsinin müdiriydi. Ayrı-ayrı rayonlarda neçə-neçə məhsul bayramlarının senari müəllifi, rejissoru olmuşdu, bir kütləvi tədbirlə Örənqalanı, digərində Oğlanqalanı tarixin yaddaş tozluğundan çıxartmışdı...

Əsgər olaraq ordu sıralarına gəlmişdi. Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdi. "Murovun qəm karvanı"nı, "Ana, Murovdan gəlirəm"i yazmışdı - yaşadığı anları misralaşdırmışdı, dərdini-qəhərini, sevincini, qürurunu şeirləşdirmişdi; şair idi Abdulla Novruz oğlu, ədəbiyyatımızın Abdulla Qurbanisi...

27 il ömürdən necə keçdi? - polkovnikiydi. Səngərlərdə əsgərlərin əhatəsində Vətən, Dövlət, Torpaq, Qələbə kəlmələri daha möhtəşəmliklə səslənirdi. Bu səsləniş əsgərlərin döyüş ruhuydu, Qələbə əzmiydi. Neçə-neçə kütləvi vətənpərvərlik tədbirinin ideya və senari müəllifi, rejissoru olmuşdu. "Qarabağa yaz gələcək!", "Cənnət Qarabağa səfərimiz var!" - inamıyla keçirilirdi bu tədbirlər, "Sənə inanırıq, ölkə rəhbəri, Sənə güvənirik, Vətən əsgəri!" - etirafıyla, sevgisiylə keçirilirdi. Minlərin əhatəsində əsgərlərin "Yol gedirik Qarabağa!" - harayı göy üzünün göylüyünü sürmələyirdi...

"Meşəli ağrılarını yaşamışdı - "Meşəli od içində"ni yazmışdı...

Bağanıs Ayrım, Ağdaban, Xocalı faciələri ürəyinə yük olmuşdu...

Neçə-neçə yaralının harayına getmişdi...

Şəhidə qardaş kimi getmişdi ailələrinə...

Hər birini ağrı biçimində ürəyinə köçürmüş. Vətənə, dövlətə, dövlətçiliyə ad olan ağrıların giziltisi ovunmur - ürək neyləsin bunca dərdə, ağrı-acılara, ana fəryadına, bacı naləsinə, körpə hayqırtısına?!..

2016-cı ilin aprel döyüşləri. Qurbani də ön səngərdə idi. O döyüşlərdə şəhid olanlarımızın son nəfəsinə qardaş təəssüfü - ürək neyləsin? Sevinc də ürəyi coşdurur, kükrədir - aprel döyüşlərində qazanılan Qələbənin sevincini döyüşlərin içində yaşamaq da ürəyin ürəkliyinə təsirsiz ötüşmür; ürəyinin şıltaqlığına məhəl qoymamışdı...

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanini Hospitalın kardiologiya bölməsinin rəisi tibb xidməti mayoru Səməd Səmədli müayinə edib. Müəyyənləşdirib ki, Abdulla Qurbaninin şah damarı genişlənib, ürəyin qapaqcıqlarında olduqca ciddi problemlər var, ürəyini qidalandıran damar da, digər bir damar da onun kimi; Abdulla birazdan əməliyyat olunacaqdı...

*Ürəyimi aç həkim,*
*Gör ki, orda nələr var?*
*Qaysaqlamış yaralar,*
*Pas atmış qəlpələr var.*
*Orda Xocalı dərdi,*
*Kəlbəcər harayı var.*
*Orda Laçın həsrəti,*
*Qırxqızın ah-vayı var.*
*Qana boyanmış beşik,*
*Səfil-sənkərdan ellər,*
*Nakam qızlar, gəlinlər.*
*Tonqallara qalanan*
*Dil-ağızsız körpələr,*
*Fəryad, qışqırıq səsi,*
*Qarabağ şikəstəsi...*

"Bu misraları mən də oxumuşam, duyğulanmışam. İndi bu misraları yazan şairin ürəyini təşrih etməliyəm - açıq ürək əməliyyatı aparmalıyam, onun ürəyinə yaşam verməliyəm...", - Baş Klinik Hospitalın ürək-damar cərrahiyəsi şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Anar Əmrah düşünürdü; "Hər səngərdə hər kəlməsi Vətən deyən, dövlət deyən, bayraq deyən, torpaq deyən şairin ömrünə çökən dumanı, çəni-çiskini dağıdacam. O ürək yenə döyünəcək, o ürəyin döyüntüləri Vətən deyənlərin, Böyük Qələbə amalıyla xidmət edənlərin ürəyiylə eyni ahəngdə döyünəcək!", - dedi və gözucu pəncərədən göy üzünə baxdı.

Hər biri ayrılıqda ağır əməliyyatdı, çətin əməliyyatıydı. Eyni ürəkdə eyni vaxtda dörd ağır əməliyyat aparılacaqdı. Bu rəqəm məsuliyyətin, cərrah riskinin misilləriydi. Bu rəqəm gündən-günə əzazilləşən, çılğınlaşan, dönməzləşən ağrıların şaxələriydi. Hər birinin, eyni anda hər dördünün ömrü uzman-cərrah Anar Əmrahın əlləriylə tükənəcəkdi...

Bir az əməliyyatın ağırlığı, bir az məsuliyyət, bir az ordumuzun yüksək rütbəli zabitinin həm özünə, həm sözünə ehtiram...

Bir azdan əməliyyata başlayacaqdı.

Nələri xatırlayırdı, cərrah Anar Əmrah? - Azərbaycan Ordusunun 100 illiyinə həsr olunan paradı, Bakının azad edilməsinin 100 illiyinə həsr olunan paradı. Hər ikisinin aparıcısı, özünün dediyi kimi, təqdimatçısı Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaniydi. Milyonların sevgiylə, qürurla, ehtiramla izlədiyi paradların möhtəşəmliyini yaşayanlardan biri kimi bu ürəyin yaşadığı, yaşatdığı duyğuları kəlmə-kəlmə o da könlünə köçürmüşdü. Bir azdan o ürəyin yaşamına görə çətin, çox çətin əməliyyata başlayacaqdı. Bu əməliyyat uzman-cərrah Anar Əmrahın daha bir möhtəşəm əsəri olacaqdı - 7 saatdan sonra baxışlarını bürüyən təbəssüm olacaqdı bu miqyasda riskli əməliyyatın sonluğu...

"Bir ürəkdə bu qədər problemi müşahidə edəndə büruzə verməsəm də, ürəyim sancdı. Vətəndaş kimi, zabit kimi ürəyin sağlamlıq durumu olduqca gərgin idi. Bu gərginliyi açıq ürək əməliyyatıyla Anar Əmrah aradan qaldıra bilərdi. Qaldırdı da", - əməliyyatdan sonra tibb xidməti mayoru Səməd Səmədli belə dedi; yadıma bir el məsəli düşdü: "Təbib qarşı gələr, xəstə sağalsa"...

Bu əməliyyat "Vətən, sənin şəhidlərin!" harayını sıxıntılardan xilas edəcək əməliyyatıydı...

Bu əməliyyat "Çingiz dastanı"nın, "Lələtəpə fatehləri"nin süzülüb gəldiyi ürəyin əməliyyatıydı...

Məsum Zəhranın torpağı qurumamış yazılan "Elegiya"nın nənnisini yaşatma əməliyyatıydı...

Neçə-neçə Vətən, torpaq ünvanlı arzunun, niyyətin, murazın yaşam əməliyyatıydı...

Ömrünü Anar Əmraha etibar edən Abdulla Qurbaninin ürəyinin əməliyyatıydı...

...Əməliyyatdan sonra hərbi tibbimizin Anarıyla görüşə bildim. Baxışlarında şükranlıq vardı - qalib əsgər şükranlığı...

Hospitalda general-mayor Rasim Əliyevin dediyi "Böyük Qələbə ərəfəsində kütləvi vətənpərvərlik tədbirləri keçirəcəksən. Anar Əmrahın yaşam verdiyi ürəyini buna köklə" kəlmələri Abdulla Qurbaniyə də, Anar Əmraha da könül xoşluğu verdi...

...Əməliyyatdan sonra Abdulla Qurbaniyə baş çəkməyə Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfiri Erkan Özoral da gəlmişdi. Səmimiyyətlə hal-əhval tutdu, Azərbaycan Ordusunun zabitinə, həm də şair, publisist zabitinə şəfalar dilədi. Səfir Erkan Özoralın dedikləri məni də duyğulandırdı:

- Azərbaycanda hərbi təbabətin inkişaf səviyyəsindən heyrətlənirəm, uzman sənədini Türkiyədə almış həkimlərin belə məsul vəzifələrdə xidmət etməsindən qürurlanıram. Belə yüksək şəraitə görə, belə uzmanlara görə sevinirəm.

Onda Abdulla məndən bir bayatı istədi. Dedim:

*...görkü gör,*
*Görk bildiyin börkü gör.*
*Unut ağrı-acını,*
*Bu yana bax, türkü gör!..*

Xoş misralar hər ikisinin, hər ikisinin əhatəsində Anar Əmrahın da, Səməd Səmədlinin də könül xoşluğuna döndü...

...Abdulla Qurbani səngərlərdən, səngərlərdə döyüş növbətçiliyi aparan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş paradda dediyi "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək" - kəlamını gerçəkləşdirəcək əsgərlərdən danışdı.

- Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirlərinin birindən yazdığım reportajı - "Horadiz halayından Qələbə halayına" - xatırlayırsanmı? O halayı yazmağa hazırlaş. O halayı sızıntılı ürəklə yazmışdın, bu halayı sağlam ürəklə yazacaqsan, - dedim. Gülümsündük. İkimiz də Anar Əmraha, Səməd Səmədliyə baxdıq - qədərsiz minnətdarlıqla.

- Ürəyin dedi ki, deyir ki, uzun illər deyəcək ki, yaşa. Ağrı-acısız illərdə də coşquyla, sevgiylə, ehtiramla, hərdən çılğınlıqla, hərdən kövrəkliklə əsgərlərimizin əhatəsində xalq şairi Vaqif Səmədoğlunun təbirincə desək, "Mən burdayam!, - de. "Lələtəpə fatehləri"nin, "Bayraqtəpə qartalları"nın coşqusundan coşsun Anar Əmrahın yeni yaşam verdiyi ürəyin... Yaxın vaxtlarda Böyük Qələbə münasibətilə Şuşada, Cıdır düzündə kütləvi vətənpərvərlik tədbiri keçirəcəksən!..

Dediklərin yaddaşımdadı: - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı nəticəsində hərbi tibb sahəsi də bu dərəcədə qurulub. Bununla bir zabit kimi mən də fəxr edirəm. Burada belə ağır əməliyyatların keçirilməsi üçün yüksək şərait yaradılıb. Mənim ürəyimdə aparılan uğurlu əməliyyata görə Ali Baş Komandana, Müdafiə nazirinə, hospitalın ürək-damar cərrahiyyəsi şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Anar Əmraha və şöbənin bütün əməkdaşlarına minnətdaram. Söz adamı olsam da, bu məqamda təşəkkürümü ifadə etməyə söz tapa bilmirəm...

Anar Əmrah sənin ürəyinə dedi ki, yaşa, ürək. Ürəyin deyir ki, yaşa Novruz oğlu Abdulla, yaşa Abdulla Qurbani. Səndən hələ neçə-neçə əsərlər gözləyirik, yazacağın şeirlər, poemalar Azərbaycan əsgərinin döyüş ruhunu kükrədəcək!..

Bu əməliyyat "Həvəs yaşamın nəfəsidi, yoxsa nəfəs yaşam həvəsidi? Hər ikisi ürəklə bağlıdı, hər ikisi üçün nəticə ürəyi iri-xırdalı ağrılardan xilas etməkdi", - əməliyyatları bu təbiblik fəlsəfəsinin işığında aparan Anar Əmrahın daha bir möhtəşəm əsəridi...

...Xanəndə, xalq artisti Əlibaba Məmmədovun ifasında "ürək deyir yaşa hələ" mahnısını dinləmək istəyirəm. Mənə elə gəlir ki, bu gözəlim mahnı Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin də, tibb xidməti polkovnik-leytenantı uzman-cərrah Anar Əmrahın da könlünə yatır. İndi onu daha duyğusallıqla dinləyərlər...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir.**

**2. Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.**

**Mövzu:** Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.

*Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir*

Dünyanın siyasi səhnəsində dövlətlərin uzunömürlü olması ilk növbədə onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran və möhkəm təməllər üzərində qurulan siyasi ideologiyasının olmasından asılıdır. Hələ min illər əvvəl Azərbaycan amili bu ərazidə yaşayan bütün xalqlar üçün birləşdirici bir məfhuma çevrilmişdir. XVI əsrdə böyük hökmdar və qüdrətli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən Azərbaycan türkcəsinin dövlət dili səviyyəsinə qaldırılması burada yaşayan xalqların Azərbaycan ətrafında daha sıx birləşməsində önəmli faktora çevrildi.

Tarixi dönəmlərdə bu ideyanın inkişaf etdirilməsinə zərurət getdikcə daha da artdı. Bunun ən tarixi nümunəsi XX əsrin əvvəllərində gerçəkləşdirildi. Belə ki, 1918-ci ildə qurulan və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası daha da inkişaf etdirildi. Təsadüfi deyil ki, azərbaycançılıq ideologiyası həm də birləşdirici bir məfhum hesab olunur. Bu da ondan irəli gəlir ki, azərbaycançılıq ideyası ətrafında, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşib. Azərbaycanda yaşayan bütün xalqlar azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul edirlər. Azərbaycançılıq ideyasının fundamental əsaslarından birini də məhz bu faktor təşkil edir. Bu baxımdan azərbaycançılıq ideyası, demək olar ki, əhalinin bütün spektrini əhatə edir.

Əslində azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə, müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin, Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşayışının tarixi təcrübəsidir.

Ümummilli lider Heydər Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Ulu Öndər xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirirdi. O, həm də yaxşı bilirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi. Ümummilli lider Heydər Əliyev xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə - oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olmayaraq - görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz Ulu Öndərin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Bu baxımdan Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər əslində azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdur.

*Ümummilli lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi*

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi azərbaycançılıq ideyası bu gün də mövcuddur. Bu ideya ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Ümummilli Liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib.

Ulu öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.

Hələ sovet dövründə respublika rəhbəri işləyərkən Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir - hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik. Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə ulu öndər Heydər Əliyev müstəqilliyin əsasını qoydu.

Ulu Öndər yorulmadan Azərbaycanın hər bir guşəsinə səfər edir, inkişafla maraqlanır, insanların həyat tərzi ilə tanış olurdu. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıyaraq, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı.

Qüdrətli şəxsiyyət Azərbaycan dilinin, tarixinin ədəbiyyat və mədəniyyətinin yeni - azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi. Bu tarixi sənədlər artıq yeni əsrin və üçüncü minilliyin əvvəllərində ana dili uğrunda mübarizənin dövlət səviyyəsində milli müstəqillik uğrunda mübarizənin - azərbaycançılığın tərkib hissəsi kimi əks etdirən dövlət proqramları - böyük strategiyanın təməl faktları idi.

Ulu öndər Heydər Əliyevin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən fundamental bir fəaliyyət proqramıdır. Bu çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini, heç şübhəsiz ordu quruculuğu təşkil edir. Bu istiqamətdə Heydər Əliyev fəaliyyətinin qlobal miqyası Azərbaycanın bugünkü reallıqları ilə yanaşı, həm də keçmişinin və gələcəyinin prizmasından əzəmətli görünür. Belə ki, hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik edən Ulu Öndərimizin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlər bu gün öz tarixi təsdiqini tapmaqdadır. O vaxtlar Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onların qəbulunda konkret güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi.

Müstəqillik illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz ümummilli lider Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyət nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ümummilli Liderin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Ordu və cəmiyyət*

# “Legion” hərbi vətənpərvərlik klubu “N” hərbi hissəsində oldu




Dövlət siyasətində ordu və cəmiyyət arasında daim geniş əlaqələrin yaradılması prioritet məsələlərdən biridir. Müxtəlif təşkilatların nümayəndələri vaxtaşırı hərbi hissələrdə olur, yaradılan xidməti və məişət şəraiti ilə yaxından tanış olmaq imkanı qazanır, əsgər və zabitlərimizlə dəyərli görüşlər keçirirlər. Bu əlaqələr Azərbaycanda ordu-cəmiyyət münasibətlərinin yüksək səviyyədə qurulduğunu sübut edir. Bu günlərdə belə əhəmiyyətli görüşlər çərçivəsində "Legion" hərbi vətənpərvərlik klubunun bir qrup üzvü "N" hərbi hissəsində oldu.

Hərbi hissənin zabiti Niyazi Dadaşov əvvəlcə qonaqları salamladı və onları hərbi hissədə görməkdən məmnunluğunu ifadə etdi. Xalq-ordu birliyinin ifadəsi olan əsgərlərlə belə görüşlərin keçirilməsinin şəxsi heyət arasında böyük ruh yüksəkliyi yaratdığını bildirdi, ordu ilə xalqın monolit birliyinin nümayişinin ifadəsi olduğunu dedi: "Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün dövlətimizin ordumuza qayğısı və diqqəti sərhədsizdir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, ordumuz yeni silah və texnika ilə təchiz edilir, maddi-texniki təminatı gücləndirilir, şəxsi heyətin peşəkarlıq səviyyəsi artırılır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daha da yüksəldilir. Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Ölkəmizdə güclü xalq-ordu birliyi var. Xalqımız yaxşı bilir ki, dövlətimizin ərazi bütövlüyünün, sülhün, əmin-amanlığın, müstəqilliyimizin təminatçısı ordumuzdur. Ordumuz inanır ki, onun arxasında Azərbaycan xalqı dayanır. Bu birlik ordumuzu daha da yenilməz, qüdrətli edir. Xalqla ordu arasında yaranmış qarşılıqlı inam ordu quruculuğu sahəsində yeni nailiyyətlərə aparır. Əsgər və zabitlərimizin ruh yüksəkliyi və vətənpərvərlik ideyaları üzərində köklənən ordu-vətəndaş münasibətlərinin təcəssümünə çevrilmiş aprel döyüşləri və Günnüt zəfəri əyani şəkildə sübut etdi ki, Azərbaycan Ordusu güclüdür, istənilən hərbi əməliyyatı uğurla yerinə yetirmək qüdrətinə malikdir.

Həmin döyüşlər zamanı xalqımızın həmrəyliyi, ruh yüksəkliyi, ordu ilə münasibəti bir daha təsdiqini tapdı, ordumuzun Böyük Qələbənin qazanacağının astanasında olduğunu göstərdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu da göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcək."



Bu gün Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Düşməndən geri alınan mühüm əhəmiyyətli Lələtəpə yüksəkliyində indi Azərbaycan bayrağı dalğalanır. Məhz bu qələbədən sonra Cocuq Mərcanlı kəndi üçün təhlükə sovuşdu. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı müvafiq sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin uzun fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Artıq Cocuq Mərcanlıda həyat əvvəlki axarına qayıdıb. Cocuq Mərcanlının bərpası həm düşmənə, həm də dünyaya bir mesaj oldu."



Tədbir iştirakçıları sonra hərbi hissənin ərazisində ictimai birliklər üçün ayrılmış sahədə ağac əkdilər. Təzə əkilən ağacları suvardılar, mövcud yaşıllıqlara aqrotexniki qulluq göstərdilər. Əsgər yeməkxanasında şəxsi heyətlə birgə nahar etdilər. Sonra qonaqlar hərbi hissənin komandanlığı ilə birlikdə ön xətdə xidmət edən əsgərlərimizə baş çəkdilər. Xidməti, məişət şəraiti ilə maraqlandılar, əsgərlərlə söhbət apardılar.

"Legion" hərbi vətənpərvərlik klubunun sədri Abuzər Əbilov dedi ki, ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, ordu quruculuğunu inkişaf etdirmək üçün cəmiyyətdə tutduğu mövqeyindən, mənsubiyyətindən asılı olmayaraq hər kəs birlikdə fəaliyyət göstərməlidir. Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. "Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək və bu məqsədlə nə lazımdır, Azərbaycan dövləti edir".

"Ordu hər bir ölkənin müstəqilliyinin qarantı, xalqımızın milli ləyaqət rəmzidir. Ölkəmizdə ordu və cəmiyyət əlaqələri xeyli güclənib, cəmiyyətin mühüm tərkib hissəsi olan orduya münasibətin səviyyəsi həmişə dövlətçiliyə münasibət kimi anlaşılıb. Vətəndaşlıq mövqeyinə söykənən bu münasibət qarşılıqlı inamdır, qarşılıqlı güvəncdir. Xalqımız öz ordusunu sevir və ona hər zaman mənəvi dəstək göstərir. Bu isə ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji durumuna müsbət təsir göstərməklə işğal edilmiş torpaqlarımızın tezliklə düşməndən azad edilməsində hərbi qulluqçularımızın qələbə əzmini daha da artırır. Bizim ön xəttə gəlişimiz ordumuza mənəvi dəstək olmaq, eyni zamanda düşmənlə təmas xəttində, torpaqlarımızın keşiyində dayanan mərd oğullarımızla həmsöhbət olub, bu igidləri yaxından tanımaq və onlara sonsuz güvəncimizi bir daha bildirmək məqsədi daşıyır. Belə görüşlər bizdə xoş ovqat yaradır. Döyüş mövqelərimizin inamla qorunduğunun bir daha şahidi olduq", - deyə Abuzər Əbilov qeyd etdi.

Əsgərlər adından çıxış edən Nihad Abdullayev də belə görüşlərin şəxsi heyətə xoş ovqat bəxş etdiyini bildirərək "Legion" hərbi vətənpərvərlik klubunun nümayəndələrinə silahdaşları adından minnətdarlığını bildirdi: "Uğurlu xidmət etməyimiz üçün hər cür şəraitimiz var. Güclü silah və texnikaya sahibik. Zabitlərimiz bizə yüksək döyüş bacarığı aşılayırlar. Bunlarla yanaşı, xalqımızın dəstəyini, güvəncini hiss etmək gücümüzə güc qatır. Uzun yol qət edib bizimlə görüşə gəldiyiniz üçün bütün əsgərlər adından sizə təşəkkürümüzü bildiririk. Sizin timsalınızda bütün xalqa səslənirik ki, firavan həyatlarını yaşasınlar, biz düşmən qarşısında mətinliklə və ayıq-sayıq dayanmışıq. İmkan verməri ki, düşmən təxribata əl atıb irəliləyə bilsin. Torpaqlarımızı işğaldan azad edib xalqımıza zəfər bayramının sevincini yaşatmağa hər an hazırıq."

Tədbirin sonunda göstərdikləri səmərəli fəaliyyətə görə klubun bir qrup üzvünə hərbi hissə komandanlığı tərəfindən fəxri fərman təqdim edildi.

Bugünkü səfərdən də təəssüratlarımız kifayət qədər yüksək və ürəkaçandır. Ordu və cəmiyyət arasında belə sıx əlaqələrin olması Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mühüm amillərdən biri olaraq, yeniyetmələrin, çağırış yaşlı gənclərin vətənpərvərlik duyğularının formalaşmasını təmin edir.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə İŞİD-la əlaqədə şübhəli bilinən 24 nəfər saxlanılıb



Türkiyənin təhlükəsizlik qüvvələri Diyarbəkir vilayətinin 11 rayonunda İŞİD silahlılarına qarşı geniş antiterror əməliyyatı keçirib.

Əməliyyat zamanı şübhəli qismində 24 nəfər həbs olunub. Saxlanılan şəxslərdən ümumilikdə 579 min 608 ABŞ dolları, 5 min 300 avro, 1 milyon 304 min Türkiyə lirəsi, 124 min 800 Suriya lirəsi, 36 mobil telefon, qanunsuz işlərdə istifadə etdikləri digər qurğular və saxta sənədlər aşkar olunub. Dəstə üzvlərinin Suriya, Livan, Liviya, İraq, İndoneziya və digər ölkələrə qanunsuz pul köçürdükləri müəyyən edilib.

### İranın Hava Hücumundan Müdafiə Qüvvələrinin hərbi təliminə start verilib



İran İslam Respublikası Hava Hücumundan Müdafiə Qüvvələrinin hərbi təliminə start verilib. "Vilayət-97" adı altında keçirilən hərbi təlimlərdə hərbi aviasiya ilə yanaşı, kosmik qüvvələr də iştirak edirlər.

Bu barədə İran ordusunun koordinasiya məsələləri üzrə baş komandanının müavini Həbibullah Səyyari məlumat verib. İranın Semnan əyalətində keçirdiyi mətbuat konfransında H.Səyyari diqqətə çatdırıb ki, hərbi təlimlərin məqsədi hərbi hava qüvvələrinin döyüş hazırlığını və ehtimal edilən hücum zamanı düşmən qüvvələrinin qarşısını almaq qabiliyyətini yoxlamaqdan ibarətdir. Hərbi təlimin əsas hissəsi 500 min kvadrat kilometrlik bir ərazini əhatə edən ölkənin şimal, şərq, qərb və mərkəzi vilayətlərində keçiriləcək.

H.Səyyari daha sonra deyib ki, bu təlimlərdə yerli istehsal olan ən son texizatlar sınaqdan keçiriləcək. Təlim zamanı düşmənin bütün qurğularının aşkar edilməsi, izlənməsi və məhv edilməsi əməliyyatlarına xüsusi yer veriləcək.

### Əfqanıstanda amerikalı hərbçi öldürülüb



Əfqanıstanın paytaxtı Kabildə təhlükəsizlik qüvvələrinin sıralarına yeridilmiş şəxsin hücumu nəticəsində bir amerikalı hərbçi həlak olub, biri isə yaralanıb.

Bu barədə NATO-nun "Qətiyyətli dəstək" missiyasının press-relizində deyilir.

Hazırda xəsarət alan hərbçiyə tibbi yardım göstərilir. Həkimlər onun vəziyyətinin stabil olduğu bildirirlər. Hücum edən şəxs əfqan əsgəri tərəfindən öldürülüb. Polis hadisə ilə bağlı təhqiqata başlayıb.

Qeyd edək ki, Əfqanıstanda 2015-ci il yanvarın 1-dən NATO-nun "Qətiyyətli dəstək" adlı qeyri-döyüş missiyası başlayıb. NATO-ya üzv ölkələrin qüvvələri missiya çərçivəsində Əfqanıstanın güc strukturlarının təlimi ilə məşğul olur və onlara kömək göstərir.

### Seul və Vaşinqton dəniz piyadalarının birgə təlimlərinə başlayıb



Koreya Respublikası və ABŞ yarım illik fasilədən sonra noyabrın 5-də dəniz piyadalarının tabor səviyyəsində müştərək təlimlərinə başlayıb.

Koreya Respublikasının Milli Müdafiə Nazirliyinin məlumatına əsasən, manevrlərdə hər iki tərəfdən 500-yə yaxın hərbçi, həmçinin piyadaların desant-hücum döyüş maşınları iştirak edəcək. ABŞ təlimlərdə Yaponiyada dislokasiya olunan dəniz piyadalarının 3-cü Ekspedisiya Korpusunun hərbçiləri ilə təmsil olunacaq. Koreya Respublikasının cənub-şərqində yerləşən Phohan rayonunda baş tutacaq manevrlərin məqsədi "müştərək müdafiə vəziyyətini gücləndirmək" və qarşılıqlı əlaqə səviyyəsini artırmaqdır.

**AZƏRTAC-ın materialları əsasında**

# “MOİK” komandası qrupda liderdir



*2018-ci ilin avqustunda start verilən birinci divizion üzrə Azərbaycan çempionatında “MOİK” komandası uğurlu çıxış edərək birincilik əldə edib. Komanda keçirdiyi 9 görüşün 8-də qalib gələrək, digər bir oyunu bərabərliklə başa vuraraq adını ən yüksək pilləyə yazıb. Kütləvi informasiya vasitələrinin apardığı müqayisələr göstərir ki, “MOİK” futbol komandası çempionatda hələ də məğlub olmayan komandalar sırasında yer alır. Bu bir daha sübut edir ki, ordumuzda idman və fiziki hazırlıq daim inkişafdadır. Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyev ordu rəhbərliyinin idmana göstərdiyi diqqət və qayğıdan, komandanın qazandığı qalibiyyətdən söz açdı.*

"1961-ci ildən fəaliyyət göstərən klubumuzda idmanın bütün növlərinə önəm verilib. Təbii ki, həm ölkə başçısı, həm də Müdafiə Nazirliyinin rəhbərliyi daim idmançılarımıza qayğı ilə yanaşıb, onların problemləri ilə maraqlanıblar. Bu gün də idmançılarımızın sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər aparılır. Onlar da öz növbəsində üzərlərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gəlirlər. Klubun əldə etdiyi hər bir nailiyyət bunun bariz nümunəsidir", - deyə polkovnik-leytenant Rəşad Quliyev bildirdi.

Qalib gələn komandanın üzvlərini yaxından tanımaq, düşüncələrini qələmə almaq üçün məşq keçdikləri stadiona yollandıq. Yol boyu Mərkəzi Ordu İdman Klubunun rəis müavini kapitan Şahin Arzumanov bildirdi ki, komandalar arasında gərgin mübarizə getməsinə baxmayaraq idmançılarımız uğurlu çıxış edərək birinci oldular. "Futbolda qabaqcadan danışmaq düzgün deyil. Düzdür, komandamız təlim-məşq toplanışlarında məşqçinin proqramına uyğun yüksək əzmkarlıqla çalışırdı. Məşq zamanı yaranan bütün problemlər vaxtında aradan qaldırılırdı. Komanda üzvləri ayrılıqda öz üzərlərinə düşən məsuliyyəti dərk edirdilər. Ona görə də hər zaman komanda şəklində məqsədə doğru irəliləyirdilər. Qalib olmaq üçün son dəqiqəyə kimi mübarizə aparırdılar. Əsas məqsədimiz birincilik olsa da, ilk olaraq qrupdan çıxmaq uğrunda çalışmalıydıq. Belə də oldu. Komandamız qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gələrək divizionda birinci oldu. “MOİK” komandası bu günə qədər qatıldığı bütün yarışlarda yüksək nəticələr əldə edib. Ordu rəhbərliyi də onların qazandığı nailiyyətləri yüksək qiymətləndirir. Qazanılan uğurlar ordumuzda idman siyasətinin düzgün qurulduğunu bir daha təsdiqləyir".

Zabitin sözləri uzun yolumuza körpü salaraq vaxtın necə keçdiyini bizlərə hiss etdirmədi. Artıq komandanın məşq keçdiyi stadiona çatırıq. Bir azdan idmançılarımızın məşq prosesini izləyəcək, onlarla həmsöhbət olacağıq.

Futbolçularımıza məşq keçən komandanın baş məşqçisi Azər Bağırov yarışa hazırlıq dövründən və əldə edilən uğurdan söz açdı:

- Həmişə demişəm, şansı düşünməkdənsə, komandanın üzərində çalışmaq lazımdır ki, yüksək nəticələr əldə edəsən. Həmçinin komanda üzvləri də tapşırıqları dəqiqlik və əzmkarlıqla yerinə yetirməlidirlər. Qatıldığımız çempionatda iştirak edən hər bir komanda qalib olmaq istəyirdi. Təbii ki, biz çempionatda iştirak etmək xatirinə çıxış etmirdik. Əsas məqsədimiz uğurlu çıxışla yadda qalmaq idi. Bunun üçün bütün qüvvəmizi səfərbər edərək, qalib adı uğrunda mübarizə apardıq. Demək olar ki, tez bir zamanda komandamızda birlik formalaşdıra bildik. Komandadan çox razıyam. Nöqsansız komanda yoxdur. Əsas aşkar olunan iradları və çatışmazlıqları daima komanda şəklində aradan qaldırmaq üçün birgə çalışmaqdır. Çempionat müddətində futbolçularımızda yorğunluq hiss olunurdu. Bunları nəzərə alıb məşq proqramını elə qururduq ki, onlar yüngül məşqlərlə bərpa olunsunlar. Təbii ki, iştirak etdiyimiz turnirin mahiyyətini anlayırdıq və idmançılarımızın maksimum dərəcədə motivasiya olmaları üçün çalışırdıq. Bunun nəticəsidir ki, yarış zamanı həm futbolçularımız, həm də azarkeşlər oyundan zövq aldılar. "Turan" komandası ilə oyunumuz digərlərindən daha gərgin keçdi. Son dəqiqələrdə vurduğumuz qol oyunun müqəddaratını həll etdi.



Komandanın kapitanı Orxan Həsənov isə söhbət zamanı bildirdi ki, qarşıdakı rəqib nə qədər güclü olsa, əgər sənin qazanma istəyin varsa, onda qalib gələcəksən. "Hər bir oyunun ilk dəqiqələrində gərginlik olurdu. Çünki rəqib komandanın hansı taktika ilə oynayacağını əvvəlcədən bilmək olmur. Komandamızın hər bir üzvü qalib olmaq istəyi ilə oynayırdı. İstər təlim-məşq toplantılarında, istərsə də oyun ərəfəsində təkcə bir məqsəd barədə düşünürdük - qalib olaq. Bütün komandalar güclü oynayırdı. "Ağsu" komandası ilə oyunumuz çətin alındı. Nəticədə uduzmadıq, oyun 1:1 hesabı ilə başa çatdı. Ümumi nəticədə komandamız divizionun lideri oldu. Əldə etdiyimiz uğura görə hər kəsə ayrı-ayrılıqda təşəkkürümü bildirirəm. Bu qələbə bizim yox, ordumuzun qələbəsidir. Bizə inanan, daim diqqət və qayğı ilə yanaşan ordu rəhbərliyinə, məşqçilərimizə öz minnətdarlığımızı bildiririk. Arzu edirik ki, dünya kuboklarında çıxış edək və komandamızın adını Azərbaycanın futbol tarixinə qızıl hərflərlə yazaq."




Komandanın üzvü Raul Yaqubzadə heç bir qalibiyyətin asanlıqla əldə olunmadığını, bunun üçün güclü mübarizə aparmalı olduqlarını qeyd etdi: "Yarışa hazırlaşdığımız müddət ərzində sadəcə qələbəyə motivasiya olmuşduq. Komandamızın üzvləri peşəkar futbolçulardır. Yarışda iştirak edən komandalar güclü olduğundan birincilik uğrunda gərgin mübarizə gedirdi. Ancaq idmanın hər növündə olduğu kimi, futbolda da ən hazırlıqlı komanda qalib olur. Daha hazırlıqlı olduğumuz və əlimizdən gələni əsirgəmədiyimiz üçün qalib olduq. Onu da qeyd edim ki, azarkeşlərdən narazılıq edə bilmərik. Onlar bizi hər oyunda dəstəkləyirdilər. Oyunun nəticəsini əvvəlcədən bilmək mümkün olmasa da, onları məyus etməyə ixtiyarımız yoxdur. Heç bir azarkeş komandasının məğlubiyyəti ilə barışmaq istəmir, onlar yalnız qələbə istəyirlər. Komandamızın hər bir üzvü kimi, mən də çox sevinirəm ki, komandir heyətinin və azarkeşlərimizin bizlərə göstərilən etimadını doğrultdaraq adımızı qalib komandanın futbolçuları kimi tarixə yazdırdıq. Bununla kifayətlənməməliyik, öz üzərimizdə daim işləməliyik, vərdişlərimizi daha da təkmilləşdirməliyik. Çünki qələbəni əldə saxlamaq, onu qazanmaqdan çətindir."

- Fərqi yoxdur, hansı idman növü ilə məşğul olursan. Əsas odur ki, çıxış etdiyin idman növündə əzmkar, dözümlü olasan, - bu sözləri komandanın gənc üzvü Rəvan Babazadə dedi. - Düzdür, bizlər üçün dözümlülük əsas şərtdir. Çünki biz Ordumuzu təmsil edirik. Hər gün fiziki hazırlıqla məşğul oluruq. Futbol elə bir idman növüdür ki, gərək rəqib komandadan daha çevik, daha cəld və dözümlü olasan. Belə olsa, həmişə bir addım öndə olacaqsan. Oyunlarda da çalışırdıq ki, cəld və əvvəlcədən təyin olunmuş taktika üzrə hücum edək. Komandamızın bütün üzvləri arasında qarşılıqlı anlayış vardı. Oyunlarda bir-birimizi başa düşürdük. Nəticədə gözəl oyun nümayiş etdirdik və qalib gəldik. Bundan sonrakı turnirlərdə də daha fəal oyun nümayiş etdirəcək, ordumuzun fiziki hazırlığının yüksək olduğunu hər kəsə göstərəcəyik".

“MOİK” futbol komandasının qapıçısı İsmayıl Muradov "Qapıçı olmaq çətindirmi?" sualımıza cavab olaraq bildirdi ki, qapıçı az dincəlməli, çox məşq etməlidir. "Qapıçı olmaq çətin və məsuliyyətli vəzifədir. Onun balaca səhvi qolla nəticələnir, komandanın bütün üzvlərinin çəkdiyi əziyyət bəhrəsiz qalır. Ona görə də, məşqlərdə verilən tapşırıqlara oyun zamanı ciddi riayət etməlisən. Psixoloji cəhətdən də möhkəm olmalısan. Oyun zamanı yaranan vəziyyətin təsiri altına düşməməli, yalnız irəli baxaraq, psixoloji gərginliyi aradan qaldırmalısan. Çempionat boyu mübarizə çox gərgin keçdi. Bütün komandalar güclü idi. Buna baxmayaraq mübarizə apardıq və qalib gəldik".

Komandanın həkimi Anar Nəsibov bildirdi ki, futbolçuların sağlamlığını qorumaq kimi məsuliyyətli vəzifə üzərinə düşür. "Mütəmadi olaraq futbolçular həkim müayinəsindən keçirilir, kiçik zədələr daim nəzarətdə saxlanılır."

İnanırıq ki, “MOİK” komandasının futbolçuları və digər idman növləri üzrə yarışlarda iştirak edən idmançılarımız əldə etdikləri nailiyyətlərlə həm müstəqil Azərbaycan Respublikasının, həm də günü-gündən güclənən ordumuzun şan-şöhrətini bundan sonra da dünyaya yaymağa davam edəcəkdir.

**Hazırladılar:**
**Baş leytenantlar**
**Məhəmməd NƏSİRLİ,**
**Ruslan HƏSƏNZADƏ,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 895
Nüsxə 3525